# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

**Xidmət statistikası şöbəsi**

# HÜQUQPOZMALAR STATİSTİKASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**30.04.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
elchinh@azstat.org, + 994 12 538 90 12

# Mündəricat


1. Statistik prosesə və məhsullara giriş........................................................ 3

2. Aktuallıq........................................................................................... 6

3. Dəqiqlik............................................................................................ 8

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə.............................. 9

5. Bərabər giriş və aydınlıq.................................................................... 10

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik............................................ 12

7. Çıxış keyfiyyət komponentləri arasında seçim......................................... 13

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi................. 13

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük..................................... 14

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik....................................................... 14

11. Yekun............................................................................................... 14

## 1. Statistik prosesə və məhsullara giriş

***Hüquqpozmalar statistikasının ümumi xarakteristikası***

Cinayətkarlıq – müəyyən olunmuş vaxt müddətində konkret ərazidə baş vermiş cinayətləri əks etdirən, kəmiyyət və keyfiyyət göstəriciləri ilə xarakterizə olunan sosial-hüquqi hadisədir. Cinayətkarlıqla mübarizə mühüm ümumxalq işi, dövlət quruculuğunun tərkib hissələrindəndir. Bu baxımdan da hüquq mühafizə orqanları ilə yanaşı cinayətkarlığa qarşı mübarizə sahəsində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının Xidmət statistikası şöbəsi ölkədə sosial vəziyyətlə bağlı rəsmi statistik məlumatları vahid metodologiya əsasında formalaşdırır və hüquqpozmalar üzrə uçot statistikası işinə rəhbərlik edir.

Azərbaycan Respublikasının hüquq mühafizə sisteminin fəaliyyətinin nəticələrini xarakterizə edən məlumatları, növlərə və sahələrə görə qeydə alınmış cinayətləri, cins və yaş üzrə cinayət törətmiş şəxsləri, məhkum olunanları, prokurorluq orqanlarının işini, yol-nəqliyyat hadisələrini, baş vermiş yanğınları və Azərbaycan Respublikasının regionlarında cinayətkarlığı, eləcə də digər məlumatları xarakterizə edən aşağıda qeyd edilmiş göstəricilər ölkə və regionlar üzrə keyfiyyətli, aktual və obyektiv statistik məlumatları işləyib hazırlamaqda köməklik edir.

***Əlaqəli statistik göstəricilərin bütün xülasəsi***

***a. Daxili İşlər Nazirliyinin məlumatları əsasında:***

- Qeydə alınmış cinayətlərin sayı;

  Təzahür formasına görə:
  - xüsusilə ağır;
  - ağır;
  - az ağır;
  - böyük ictimai təhlükə törətməyən cinayətlər.
- Şəxsiyyət əleyhinə cinayətlər:
- İqtisadi sahədə cinayətlər:
- İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər;
- Dövlət hakimiyyəti əleyhinə olan cinayətlər:
- Yol-nəqliyyat hadisələri;
- Axtarış zamanı müəyyən edilmiş cinayətkarlar və itkin düşmüş şəxslər;
- Ayrı-ayrı şəxslər tərəfindən törədilmiş cinayətlər;

- Cinayət törətmiş şəxslərin yaş bölgüsü;
- Cinayət növlərinə görə cinayət törətmiş şəxslər;
- Sərxoş vəziyyətində cinayət törətmiş şəxslər;
- Məişət zorakılığı;
- Adam oğurluğu;
- Cinayət törətmiş şəxslərin sosial-demoqrafik əlamətlərinə görə bölgüsü;
- Yetkinlik yaşına çatmayanların baxımsızlığı, hüquq pozuntuları və hüquqlarının müdafiəsi ilə bağlı;
- 14-18 yaşadək uşaqlar tərəfindən törədilmiş cinayətlər.

***b. Azərbaycan Respublikasının Baş Prokurorluğunun məlumatları əsasında:***

- Birinci instansiya məhkəmələrinin işi;
- Məhkəmə hazırlıq iclasının qərarı ilə baxılmış işlər:
  - xüsusi ittiham qaydasında şikayətin icraata qəbul edilməsindən imtina olunmuş işlər;
  - iş məhkəmə aidiyyəti üzrə göndərilmişdir;
  - cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarına baxılmasına xitam verilmiş və prokurora qaytarılmış işlər;
  - cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə icraata xitam verilmiş işlər.
- Məhkəmə baxışında çıxarılmış yekun qərarlar üzrə:
- Daxil olan işlər üzrə:
- Ailə münasibətləri üzrə;
- Əmək mübahisələri üzrə;
- Müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr;
- Vətəndaşların ərizə, şikayət və müraciətlərinə baxılması:
  - vətəndaşların konstitusiya hüquqlarına riayəti haqqında;
  - icarə haqqında qanunla əlaqədar.
- İbtidai araşdırma sahəsində qanunların icra olunmasına nəzarət;
- İbtidai araşdırma məsələləri üzrə həll edilən şikayətlərin xarakteri;
- Qurtarmış işlər üzrə ibtidai araşdırma müddətəri üzrə;

- Törədilmiş və hazırlanan cinayət növləri üzrə prokurorluq orqanlarında baxılan məlumatlar:
  - sağlamlığa zərər vurma, döymə, işgəncə vermə;
  - adam öldürmə;
  - zorlama və şəxsiyyətin cinsi toxunulmazlığı, cinsi azadlığı əleyhinə olan cinayətlər;
  - oğurluq;
  - dələduzluq;
  - mənimsəmə və ya israf etmə;
  - quldurluq;
  - soyğunçuluq;
  - xuliqanlıq;
  - narkotik vasitələrlə bağlı cinayətlər;
  - yol hərəkətinin təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması;
  - vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, səhlənkarlıq;
  - rüşvətlə bağlı cinayətlər.

c. ***Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin məlumatları əsasında:***

- Törədilən cinayətlər üzrə məhkum olunanlar;
- Cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər ;
- Törədilən cinayətlər üzrə məhkumlara tətbiq olunmuş əsas cəza tədbirləri;
- Törədilən cinayətlər üzrə məhkum olunanların azadlıqdan məhrum olma müddətləri;
- Məhkum olunanların tərkibi;
- Məhkum olunmuş 14-18 yaşadək uşaqların tərkibi;
- 14-18 yaşadək məhkumlara tətbiq olunmuş əsas cəza tədbirləri;
- Sərxoş vəziyyətində cinayət törətmiş şəxslərdən məhkum olunanar;
- Azadlıqdan məhrum olunanların məhkum olma müddətinə görə bölgüsü;
- Məhkəmə qərarlarının icrası ilə bağlı sənədlərin kateqoriyalar üzrə bölgüsü;
- Məhkəmələrdə baxılmış mülki işlər;
- Məhkəmələrdə baxılmış inzibati xətalar.

***d. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin məlumatları əsasında:***

- Qeydə alınmış yanğınların sayı;
- Yanğınlar nəticəsində dəyən zərərin ümumi məbləği;
- Həlak olanlar;
- Məhv edilmiş tikililər;
- Yanğınların baş vermə səbəbləri:
  - qəsdən törədilən yanğınlar;
  - sobaların nasazlığı;
  - siqaret çəkilməsi zamanı ehtiyatsızlıq;
  - odlu işlər aparılan zaman yanğın təhlükəsizlik qaydalarının pozulması.
- Qeydə alınmış yanğın obyektləri haqqında.
  - istehsal təyinatlı binalar;
  - anbarlar, bazalar və ticarət binaları.

## 2. Aktuallıq

Hüquqpozma – qanunla qadağan olunmuş müxtəlif əməllərin, cinayətlərin, qanun pozuntularının məcmusu şəklində qarşımıza çıxan mürəkkəb sosial təzahürdür. Hüquqpozmalar statistikası təhlil edilərkən mütləq və nisbi göstəricilərdən istifadə edilir. Sonuncuların sırasına əhalinin hər 100 min nəfərinə görə hesablanmış, qeydə alınmış cinayətlərin və ya cinayət törətmiş şəxslərin sayını özündə əks etdirən cinayətkarlıq əmsallarını da aid etmək olar. Burada əmsalın iki növündən istifadə olunur:

- Yetkinlik yaşına çatmayanlar da daxil olmaqla, bütün əhalinin hər 100 min nəfərinə görə hesablanır ki, bu da əhalinin cinayətkarlıqdan nə dərəcədə zərər çəkdiyini əks etdirir;

- Qanunvericiliyə uyğun olaraq, cinayət məsuliyyəti yaşında – 14 yaşında və ondan yuxarı yaşlı əhalinin hər 100 min nəfərinə görə hesablanır ki, bu da əhalinin kriminal fəallığını əks etdirən bir göstərici hesab edilir.

Hüquqpozmalar statistikasına dair hüquq-mühafizə orqanlarının təqdim etdiyi rəsmi statistik hesabatlarda əks olunan mütləq göstəricilərin hüquqi izahı aşağıdakı qaydada verilmişdir:

- Hüquqpozma – müəyyən vaxt müddətində, konkret ərazidə baş vermiş müəyyən qanun pozuntularını əks etdirən, kəmiyyət və keyfiyyət göstəriciləri ilə xarakterizə olunan sosial – hüquqi hadisədir.
- Cinayətkarlıq – qanunla qadağan olunmuş müxtəlif əməllərin, cinayətlərin məcmusu şəklində qarşımıza çıxan mürəkkəb sosial təzahürdür.
- Qeydə alınmış cinayətlər - cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş, aşkar edilmiş və rəsmi qeydiyyata alınmış ictimai təhlükəli əməldir.
- Ağır və xüsusilə ağır cinayətlər – Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15-ci maddəsinin 4,5-ci bəndində adları çəkilən, cəmiyyət üçün daha çox təhlükəli olan qəsdən edilmiş əməldir.
- Cinayət törətmiş şəxslər - barələrində cinayət işi açılmış və daxili işlər orqanları tərəfindən rəsmi qeydiyyata alınmış şəxslərdir.
- İnsan alveri - zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi (uşağın istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi bu maddədə göstərilən üsullardan istifadə olunmasa da insan alveri hesab edilir);
- Cinayət törətmiş şəxslər – müqəssir kimi çəsuliyyətə cəlb edilməsi haqqında qərar verilmiş şəxslərdir.
- Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər – müqəssir kimi məsuliyyətə cəlb edilməsi haqqında qərar verilmiş şəxslərdir.
- Yetkinlik yaşına çatmayanların cinayətkarlığı – cinayəti törədərkən 14 yaşına çatmış, lakin 18 yaşı tamam olmamış şəxslərin cinayətlərinin məcmusudur.

- Cinayətlərdən dəyən iqtisadi zərər – istintaqı başa çatmış işlər və sənədlər üzrə istintaq orqanları tərəfindən cinayətlər nəticəsində dəyən zərərin müəyyən edilmiş məbləğidir.

- Cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlak - Azərbaycan Respublikasının Cinayət Məcəlləsində təsbit edilmiş cinayətlərin törədilməsi nəticəsində birbaşa və ya dolayı yolla əldə olunmuş hər hansı pul vəsaitləri, daşınar və ya daşınmaz, maddi və ya qeyri-maddi əmlak, mülkiyyət hüquqlarını təsdiq edən hüquqi sənədlərdir;

- Mütəşəkkil cinayətkar qruplar – varlanmaq və külli miqdarda gəlir əldə etmək məqsədilə birləşmiş və tərkibinin sabitliyi, hərəkətlərinin miqyası, cinayət iştirakçılarının daxili ixtisaslaşması ilə seçilən qruplardır. Mütəşəkkil qruplar tərəfindən törədilən cinayətlərin sayı qeydə alınmış mütəşəkkil qruplar tərəfindən törədilən və Cinayət Məcəlləsində nəzərdə tutulan ictimai təhlükəli əməllərin sayıdır.

  Məhkum olunmuşların sayına qanuni qüvvəyə minmiş məhkəmələrin hökmü ilə haqqında qərar çıxarılmış müttəhimlər aid edilir.

- Mühakimlər üçün islah müəssisələrinin sayı - azadlıqdan məhrum edilməklə mühakimə olunanların cəzalarını çəkmək üçün nəzərdə tutulmuş koloniya-məntəqələrinin, islah və tərbiyə koloniyalarının, həbsxanaların sayıdır.

## 3. Dəqiqlik

Hüquqpozmalar statistikasının hesablanması və qarşıya qoyulan vəzifələrin keyfiyyətli həlli üçün, Xidmət statistikası şöbəsi ilk növbədə hüquq-mühafizə orqanlarından qəbul edilən ilkin məlumatların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq metodoloji işləri davam etdirir. Yerli statistika orqanlarının əməkdaşları mütəmadi olaraq seminarlarda iştirak edir və hər hansı metodoloji yeniliklər baş verərsə onlar operativ olaraq məlumatlandırılırlar.

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin, Prokurorluq orqanlarının, habelə yanğınlar haqqında Fövqəladə Hallar Nazirliyinin məlumatları əsasında və eləcə də Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Yerli statistika orqanları üçün statistik işlər proqramı"na əsasən, yerli Statistika İdarələri tərəfindən Baş Hesablama Mərkəzinə təqdim olunan 1-İX (İnzibati xətalar) nömrəli rəsmi statistika hesabatı formasının yekunlarına dair "İnzibati xətalara dair təhlili məruzə və bülleten hazırlanaraq Aparatın Xidmət statististikası şöbəsinə təqdim olunur. Əldə olunan məlumatlar dərhal təhlil olunur və bu təhlil əsasında mart ayının 5-dək ölkə üzrə hüquq mühafizə sisteminin fəaliyyətinin nəticələrini əvvəlki illərlə müqayisəli şəkildə xarakterizə edən məlumatlar əldə olunur. Toplu məlumatların alınması ilə yekun nəticələrin (həmçinin son nəticələrin) hazır olma vaxtı arasında vaxt intervalı 26 gündür.

*2011-2012-ci illəri əhatə edən bir neçə il üzrə **V2** göstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)*

*Cədvəl №1*

| Hesabat dövrü sonuncu günü | 16.01.2012 | 16.01.2013 |
|---|---|---|
| Son nəticələrin nəşr günü (bülletenin nəşr olunması) | 11.03.2012 | 11.03.2013 |
| Aralıq vaxt , təqvim günü | 55 gün | 55 gün |
| Aralıq vaxt , iş günü | 37 gün | 37 gün |

*2011-2012-ci illər üzrə **V3** göstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)*

*Cədvəl №2*

| Hesabat dövrü | 16.01.2012 | 16.01.2013 |
|---|---|---|
| Elan edilmiş nəşr tarixi | 11.03.2012 | 11.03.2013 |
| Faktiki nəşr tarixi | 11.03.2012 | 11.03.2013 |
| Aralıq vaxt (laq) | 0 | 0 |

## 5. Bərabər giriş və aydınlıq

Qeydə alınmış cinayətlər, cins və yaş üzrə cinayət törətmiş şəxslər, məhkum olunanlar, prokurorluğun fəaliyyəti ilə bağlı, yol-nəqliyyat hadisələri, baş vermiş yanğınlar və Azərbaycan Respublikasının regionlarında cinayətkarlığa dair göstəricilər, eləcə də digər məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların hesablanması prosesi yekunlaşdıqdan sonra illik məlumatlar əks olunmuş ekspress-məlumatlar, press-relizlər, bülleten və məcmuələr Komitənin internet səhifəsində əks olunur *(http://www.stat.gov.az/source/crimes/).* İllik məlumatlar Komitənin internet səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir:

*http://www.azstat.org/MESearch/search?departament=20&lang=az*

Eyni zamanda göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlardamövcuddur http://www.azstat.org/MetaDataG/.

Bundan əlavə Müstəqil Dövlətlər Birliyinin (MDB) Statistika Komitəsinin xüsusi standartları üzrə hazırlanmış cədvəllər hazırlanır və eyni zamanda beynəlxalq təşkilatlardan daxil olan sorğu vərəqələri cavablandırılır.

### *Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr*

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| **1** | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| **2** | Ekspress məlumatlar, press-relizlər | www.stat.gov.az |
| **3** | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=20&lang=az |
| **4** | Dövlət statistika orqanlarına göndərilən sorğulara cavablar | - |
| **Xidmət statistikası şöbəsi tərəfindən nəşr edilən statistik məcmuə** | | |
| **5** | "Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar" | http://www.stat.gov.az/source/crimes/ |
| **Xidmət statistikası şöbəsi tərəfindən nəşr edilən statistik bülleten** | | |
| **6** | "Azərbaycanda cinayətkarlıq" | - |
| **7** | "Azərbaycanda Prokurorluğun fəaliyyəti ilə bağlı statistik məlumatlar" | - |
| **8** | "Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər" | - |
| **Komitənin digər şöbələri tərəfindən nəşr edilən statistik məcmuələr** | | |
| **9** | "Azərbaycan rəqəmlərdə" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **10** | "Azərbaycanın statistik göstəriciləri" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/SYA2012/ |
| **11** | "Azərbaycanda uşaqlar" | http://www.stat.gov.az/source/demoqraphy/au/ |
| **12** | "Azərbaycanda gənclər" | http://www.stat.gov.az/source/demoqraphy/ay/ |
| **13** | "Azərbaycanda qadınlar və kişilər" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/Women-men.pdf |
| **Komitə tərəfində nəşr edilən buklet** | | |
| **14** | "Azərbaycan faktlar və rəqəmlər" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |

***BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı***

2013-cü ildə cinayətkarlığa dair məlumatlar kağız formasında Xidmət statistikası şöbəsi tərəfindən hazırlanan "Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar" adlı illik statistik məcmuə və "Azərbaycanda cinayətkarlıq", "Azərbaycanda Prokurorluğun fəaliyyəti ilə bağlı statistik məlumatlar" və "Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər" adlı statistik bülleten vasitəsilə təqdim olunması planlaşdırılır.

Tiraj:
Azərbaycanda cinayətkarlıq və hüquqpozmalar – 160 nüsxə;
Azərbaycanda cinayətkarlıq – 55 nüsxə;
Azərbaycanda Prokurorluğun fəaliyyəti ilə bağlı statistik məlumatlar – 55 nüsxə;
Azərbaycanda məhkumetmə və məhkəmələrdə baxılan işlər – 55 nüsxə.

***BA2.Onlayn məlumat bazasına girişlərin sayı***

http://www.stat.gov.az/link_click_counter/ -də cinayətkarlıq və hüquqpozmalar statistikası məhsulundan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Statistik göstəricilər qiymətləndirilərkən cinayətkarlığın gizlilik (latent) xassəsini, yəni bu və ya digər səbəblər üzündən cinayətlərin müəyyən hissəsinin uçotdan kənarda qaldığını nəzərə almaq lazımdır.

Əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin hesablanması qaydası aşağıdakı kimi aparılır:

$$X = A * B / C$$

*Burada,*

**A** – Qeyd edilmiş cinayətlər;

**B** – 100 min nəfər;

**C** – Əhalinin sayı.

***UM1. Verilmiş dinamika sırasının uzunluğu***

Cinayətkarlığa dair toplu məlumatların nəticələri dinamika sıralarında əks etdirilir. Dinamika sıralarında Azərbaycan Respublikasının iqtisadi və inzibati rayonları üzrə göstəriciləri əks olunur. Bu göstəricilər 1991-ci ildən hazırkı dövrədək illər üzrə əks etdirilir.

Dinamika sıralarında aşağıdakı göstəricilər əks olunur:

- *qeydə alınmış cinayətlər;*
- *ağır və xüsusilə ağır cinayətlər;*
- *14-18 yaşadək uşaqlar tərəfindən törədilmiş cinayətlər;*
- *Əhalinin hər 100 min nəfərinə düşən cinayətlər.*

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Şöbə cinayətkarlığa dair göstəricilərin hesablanması zamanı bütün keyfiyyət aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Belə ki, aktuallıq aspekti üzrə məlumatların yığımı, emalı və yayılması zamanı operativlik hər zaman gözlənilir. Dəqiqlik aspekti üzrə ilkin məlumatların toplanmasına daim nəzarət edilir və mütəmadi olaraq məlumatların dürüstlüyü yoxlanılır. Vaxtlı-vaxtında olma aspekti üzrə hər ilin əvvəlində göstəricilərin yayımlanması barədə təqvim hazırlanaraq Komitənin internet səhifəsində yerləşdirilir. Təqvimə uyğun olaraq göstəricilər haqqında məlumatlar istehlak bölməsi üzrə hər ay veb-səhifədə yerləşdirilir.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Beynəlxalq təşkilatlardan, hüquqi və fiziki şəxslərdən daxil olan sorğular əsasında yeni göstəricilərə olan tələbat müəyyənləşdirilir. Zərurət yarandığı halda bu məlumatların əldə edilməsi məqsədilə hüquq-mühafizə orqanları tərəfindən təqdim olunan hesabatlarda dəyişikliklər edilməsi üçün bu orqanlara müraciət edilir. Hesabatlar yolu ilə əldə edilə bilinməyən məlumatların alınması ilə bağlı seçmə müayinələr aparılır.

## **9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük**

Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.

Şöbə mütəmadi olaraq hər il təqdim olunan rəsmi statistik hesabatların tərkibinə yenidən baxır. Belə ki, respondentlərə düşən yükünün azaldılması məqsədilə 2011-ci ildə "Cinayətkarlığın vəziyyəti və cinayətlər üzrə araşdırmaların nəticələri" barədə 1-A nömrəli, DYNX nömrəli "Yanğınlar haqqında" rəsmi statistika hesabatı formasına yenidən baxılaraq bir sıra dəyişikliklər edilmişdir.

## **10. Məxfilik, şəffaflıq və təhlükəsizlik**

Rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir. Bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

## **11. Yekun**

Xidmət statistikasının daha keyfiyyətli qurulması məqsədi cinayətkarlıq və hüquqpozmalarla bağlı məlumatları daha operativ və dəqiq əldə edilməsi üçün Dövlət Statistika Komitəsi göstəricilərin daha dəqiq və mükəmməl aparılması məqsədi ilə gələcəkdə bu sahənin proqramlaşdırılması və keyfiyyətinin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi məqsədəuyğun hesab edilir.